*https://doi.org/10.30546/114578.2025.9.1031*

# SEYİD ƏZİM ŞİRVANİ YARADICILIĞINA BİR NƏZƏR

**Nabat Cəfərova**
*pedaqogika elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCID.org/ -0003-0684-9374*
*cafarova_nabat@mail.ru*

**Xülasə**

XIX əsrin yazarlarından biri olan Seyid Əzim Şirvani fərqli yaradıcılığı, dəst-xətti ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer almışdır. Seyid Əzim Şirvani sözə dərin ehtiram bildirən, yeni ədəbi uğurlara can atan, sözün imkanlarından yaradıcı şəkildə bəhrələnən qələm sahiblərindən biridir.

Şairin sözə münasibəti, söz haqqında fikirləri çox maraqlıdır. O, sözə dəyər verərək əsərlərinin dilini zənginləşdirən hər bir nüansa sehrli qüvvə kimi baxmışdır.

Şairin yaradıcılığında müəllif fikrinin daha qüvvətli ifadəsinə xidmət edən sözün bu əlamətlərini ədib maraqlı qarşılaşdırmalarla izah etmişdir. Əlbəttə, söz hər bir dona girə bilər, o ağladar, pərt edər, sevindirər, güldürər, ucaldar, düşündürər və s. Sözün rəngarəng anlamlara malik olması baxımından bu bənzətmə yerinə düşürdü. Bundan əlavə, hər zamanın sözə yanaşma tərzi özünəməxsusluğu ilə seçilir, söz müxtəlif tarixlərdə fərqli anlam və şəkillərdə işlənə bilmək xüsusiyyətinə malikdir. Seyid Əzim Şirvaninin yaradıcılığında sözün gücünün nə qədər üstünlük təşkil etdiyini əsərlərində görürük və bu da təsadüfi deyil, sünki şair həm söz sərrafı, həm pedaqoq, həm də dərslik müəllifi idi.

**Açar sözlər:** Seyid Əzim Şirvani, şair, sözə yanaşma, lirika, qəzəl, satira, orijinal əsərlər.

# A LOOK AT THE WORK OF SEYID AZIM SHIRVANI

**Nabat Jafarova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Seyid Azim Shirvani, one of the writers of the 19th century, occupied a

unique place in Azerbaijani literature thanks to his original creativity and style. Seyid Azim Shirvani is one of those writers who deeply respected the word, strove for new literary successes and creatively used its possibilities.

The poet's attitude to the word, his ideas about the word are very interesting. He valued the word and perceived every nuance that enriched the language of his works as a magical power.

In his work, the poet reveals these features of the word, which serve for a stronger expression of the author's idea, with interesting comparisons. This analogy is appropriate from the point of view of the diversity of meanings of the word. Of course, the word penetrates into every part of the soul, it can make you cry, be sad, rejoice, laugh, admire, think, etc. In addition, the approach to the word of each time is distinguished by its uniqueness, the word has the property of being used in different meanings and forms in different eras. We see how dominant the power of the word is in the work of Seyid Azim Shirvani, and this is not accidental: the poet was a master of words, a teacher, and an author of textbooks.

**Key words:** Seyid Azim Shirvani, poet, approach to the word, lyrics, ghazal, satire, original works.

## ВЗГЛЯД НА ТВОРЧЕСТВО СЕЙИДА АЗИМА ШИРВАНИ

**Набат Джафарова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Сейид Азим Ширвани, один из писателей XIX века, занял уникальное место в азербайджанской литературе благодаря своему самобытному творчеству и стилю. Сейид Азим Ширвани – один из тех писателей, кто глубоко уважал слово, стремился к новым литературным успехам и творчески использовал его возможности. Отношение поэта к слову, его представления о слове весьма интересны. Он ценил слово и каждый нюанс, обогащавший язык его произведений, воспринимал как магическую силу. В своём творчестве поэт раскрывает эти особенности слова, служащие для более сильного выражения авторской идеи, интересными сопоставлениями. Эта аналогия уместна с точки зрения многообразия значений слова. Конечно, слово проникает в каждую частичку души, оно может заставить плакать, грустить, радоваться, смеяться, восхищать,

думать и т. д. Кроме того, подход к слову каждого времени отличается своей уникальностью, слово обладает свойством употребляться в разных значениях и формах в разные эпохи. Мы видим, насколько доминирует сила слова в творчестве Сейида Азима Ширвани, и это не случайно: поэт был и мастером слова, и учителем, и автором учебников.

**Ключевые слова:** Сейид Азим Ширвани, поэт, подход к слову, лирика, газель, сатира, оригинальные произведения.

## Giriş/Introduction

Seyid Əzim Şirvani XIX əsrin Azərbaycan ədəbiyyatı tarixinə daxil olan təkrarolunmaz nümayəndələrindəndir. O, Yaxın və Orta Şərqdə dini mərkəzlərdə ali ruhani təhsili almışdır. Seyid Əzim Şirvaninin zəngin ədəbi-bədii yaradıcılığı biri Azərbaycan dilində, digəri isə fars dilində olan iki böyük külliyyatdan ibarətdir.

"*Klassik ədəbiyyatımızı layiqincə və təkrarsız davam etdirən ədiblərdən biri böyük söz ustadı, maarifçi, publisist, pedaqoq Seyid Əzim Şirvanidir. Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının klassik poeziya ənənələrini yaradıcılıqla davam etdirən ən qüdrətli sənətkardır. Milli poeziyamızın inkişaf tarixində o, incə ruhlu lirik, cəmiyyətin sosial bəlalarını cəsarətlə tənqid edən satirik, əxlaqi-tərbiyəvi mənzum hekayələr və təmsillər müəllifi, nəhayət, ədəbiyyatşünas-təzkirəçi kimi məşhurdur*" [Əliyeva, 2020:3].

S.Ə.Şirvaninin həyat və yaradıcılığı haqqında F.Köçərli, F.Qasımzadə, Ə.Şərif, Ə.Seyidzadə, K.Məmmədov, K.Mirbağırov, Ə.Cəfərzadə, X.Məmmədov, N.Səmədzadə, A.Bayramoğlu, Z.Əsgərli və başqaları geniş və dəyərli tədqiqatlar aparmışlar [Çayırlı, 2015:15].

**Seyid Əzim Şirvaninin yaradıcılığının birinci dövrü.** S.Ə.Şirvaninin azərbaycanca bədii irsinin əsasını qəzəl janrı təşkil edir, yəni birinci dövr yaradıcılığında daha çox lirik janrda yazılmış orijinal əsərlər, yəni qəzəllər üstünlük təşkil edir. Lirik şeirlər Seyid Əzim irsinin böyük bir qismini əhatə edir. Qəzəl, qəsidə, rübai, qitə, müxəmməs, müstəzad və s. janrlarda yazılmış əsərlərində Seyid Əzim Şirvani klassik ədəbi məktəbin ənənələrini davam etdirmişdir. Şairin dərin lirikasını qəzəllərdə görmək mümkündür. Bunların çoxu aşiqanə qəzəllərdir ki, şairin şeirə hərarət və can verən qəzəllərində həyat sevgisi, nikbin əhvali-ruhiyyə xüsusi yer tutur:

*Çıxır can cismdən, bir dəm yetir cananımı, ya rəb!*
*Görüb ruxsarını təslim edim bu canımı, ya rəb!*
*Görüb ruxsarını nəzr etmişəm kim, can edim qurban,*

*Yetir yarı, qəbul eylə mənim qurbanımı, ya rəb!...*
[Şirvani, 2005:44].

Şairin lirikasının mövzusu bədii-estetik məzmun baxımından çox zəngindir. Onun lirikasının əsasını məhəbbət mövzusu təşkil edirdi:

*Nə xoşdur yetsə aşiq vəsli-yarə,*
*Çəkə can kimi dildarın kənarə!*
*Ona şərh eyləyə hicran bəlasın,*
*Sirişki-çeşmi-zarın macərasın.*
*Xudavənda, behəqqi-İsü Yəqub,*
*Məni hicran əlində qoyma məğlub* [Şirvani, 2005:111].

Seyid Əzim Şirvaninin zəngin bədii irsi içərisində Şərqin müxtəlif mənbələrindən etdiyi tərcümələr də vardır ki, bunlar Füzuli, Hafiz, Sədi Şirazinin şeirlərinə yazdığı nəzirələrdir və şairin əsərləri içərisində çox azdır.

Qeyd edək ki, XIX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatı yarandığı dövrdən ölkədə yeniliyin mühafizəkarlıqla mübarizəsi başlanmışdı. Bu yenilik ruhu tərəqqini dəstəkləyən qabaqcıl ziyalıların maarifçi ideyalarının güclənməsinə, yeni tipli məktəblərin aşılmasına rəvac verdi. Bu dövrün maarifçi ziyalıları elmin, təhsilin gərəkli olduğunu söyləyərkən elmsizliyə, əqli donuqluğa, zülmə, biganəliyə, mühafizəkarlığa nifrətlərini də qəti şəkildə ifadə edirdilər.

XIX əsrin ortalarında Azərbaycanda elmin, təhsilin vacib və gərəkli olduğunu söyləyən ziyalılar nəinki ictimai həyatda, eləcə də təfəkkürlərdə antoqonist tərəflərin ciddi mübarizə aparmalarından dönə-dönə söz açırdılar. Eyni vəziyyət Seyid Əzim Şirvaninin əməllərində, əsərlərində də izlənilməkdədir.

**Seyid Əzim Şirvaninin "üsuli-cədid" məktəbi haqqında.** XIX əsrin ortalarında Azərbaycanın bir sıra yerlərində ana dilində məktəblər açılmağa başlanmışdı. Bu məktəblər "üsuli-cədid" (yeni üsul) adlanırdı və Azərbaycanda ilk olaraq 1869-cu ildə Şamaxıda S.Ə.Şirvani özünün "üsuli-cədid" məktəbini açdı [Məmmədov, 2015:68].

"Üsuli-cədid" məktəblərində dərslər ana dilində keçirilirdi. "Üsuli-Cədid" məktəbi mollaxana və mədrəsələrdən fərqlənirdi, burada şagirdlər həsir üzərində yox, partalarda oturur, yazı lövhəsində yazırdılar. Dərslərdə şairin özü və dostları tərəfindən hazırlanmış dərsliklərdən istifadə edilirdi.

Seyid Əzim Şirvani Şamaxıda ana dilində açdığı yeni üsullu məktəbdə istifadə edilmək üçün "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani", "Tacül-

kütüb" adlı dərsliklər yazmış və bu dərsliklərə şairlərdən, müxtəlif ədəbi mənbələrdən əldə etdiyi tərcümələri də daxil etmişdir. Onun 1878-ci ildə ibtidai sinif şagirdləri üçün tərtib etdiyi "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlı dərslik Azərbaycan təhsili tarixində əlamətdar bir hadisə kimi qeyd edilmişdir. Görkəmli şəxsiyyətlər − M.Ə.Sabir, S.M.Qənizadə, S.M.Əfəndiyev, H.B.Nəzərli və başqaları ilk dünyəvi təhsillərini o dövrdə din xadimlərinin "kafir məktəbi" adlandırdıqları Seyid Əzim Şirvaninin "üsuli-cədid" məktəbində almışlar.

Məşhur ədəbiyyatşünas, maarifpərvər Firudin bəy Köçərli S.Ə.Şirvaninin tərcümeyi-halını ilk dəfə olaraq geniş işıqlandırmış, şairin avtobioqrafik əsərlərinə istinad etməklə onun doğum tarixi, uşaqlıq və gənclik illəri, təhsil almaq üçün etdiyi səyahətləri barədə dəqiq məlumat vermişdir. O yazırdı ki, bu səfərlər nəticəsində şair "həqiqət aləmindən nuri-mərifət kəsb etmişdir" və bunun sayəsində əbədiyyət qazanmağa nail olmuşdur: "*Axirül-əmir Hacı Seyid Əzim öz vətəni Şamaxı şəhərinə müraciət edib burada bir məktəb binası qoymuşdur ki, onda türk, fars və rus dilləri təlim olunurdu"*[Vahidova, 2013:62]. Firudin bəy Köçərli Seyid Əzim Şirvaninin çox böyük *istedad*a malik olduğunu, məclislərdə şövqə gəlib bədahətən, bir-birindən gözəl şeirlər söyləməsini, şeir sənətinin bilicisi olmaqda türk şairləri arasında misli-bərabəri olmadığını xüsusilə qeyd etmişdir"[Vahidova, 2013:63].

Belə deyə bilərik ki, Seyid Əzim Şirvaninin həm məktəbdarlıq fəaliyyəti, həm dərslik hazırlamaq, həm də qabaqcıl elm adamları ilə yaxın təmasda olmaq qabiliyyəti onun bədii yaradıcılığına da çox böyük təsir göstərmişdir.

**Seyid Əzim Şirvaninin yaradıcılığında "Əkinçi" qəzetinin rolu.** Şairin realist şeir yaradıcılığı sahəsinə keçməsində Həsən bəy Zərdabinin mühüm rolu olmuşdur. Çünki o şeirlərini Azərbaycanda ilk mətbuat orqanı olan, Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetində nəşr etdirirdi.

"Əkinçi"nin nəşri ilə bağlı göndərdiyi təbrik məktubunda Seyid Əzim bu mətbu orqanı və Zərdabinin "əhli-islamı", "xaki-məzəllətdən" qaldırdığı, xalqı öz ana dilində günün aktual problemləri ilə tanış etdiyini alqışlayırdı. O, *"Əkinçi"nin gəlişini ruhu təzələyən səhərə bənzədirdi. Səhər mehi insanda xoş duyğular oyatdığı kimi "Əkinçi" də müsəlman aləmini qəflət yuxusundan oyadırdı. Qəzetin müsəlman aləminə gətirdiyi bu yeniliyi duyan şair "Əkinçi"nin davamlı nəşrini arzulayırd*ı [İsmayılova, 2020:10]._

*Neçə müddətdir ki, Həsən bəyi zar,*
*Hüsnü-tədbir ilə o fəxri-kibar,*
*Öz qədimi misalımızda haman,*

*Qəzetə çapını edib ünvan.*
*İzn hasil qılıbdır dövlətdən,*
*Biz gərək dəm vuraq səadətdən*
*Özünə gərçi yoxdur faidəsi,*
*Leyk var, xəlqə feyzi-zaidəsi* [Şirvani, 2005:183].

"Əkinçi"nin təsirilə şair günün bir çox zəruri məsələləri ilə maraqlanır və yaradıcılığında yeni mövzulara keçir, müasir həyatın tələblərinə uyğun şeirlər yazırdı. Maarifçi şair üçün "Əkinçi" qəzeti xalqa müraciət yeri idi. Elə bu zamandan şairin yaradıcılığında realizm üstünlük təşkil etməyə başlamışdı.

S.Ə.Şirvanini o dövrün böyük realist şairi kimi tanıdan "Qafqaz müsəlmanlarına xitab", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Alim oğul ilə avam ata", "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim" və s. şeirləridir. O, xalqı qəflət və cəhalət yuxusundan oyanmağa çağırır, Həsən bəy Zərdabinin xeyirxah, maarifçi təşəbbüslərini alqışlayır, onu bilikli bir müəllim və xeyirxah bir insan kimi qiymətləndirirdi. O, "Əkinçi"də çap etdirdiyi şeirləri ilə müasirlərini bu qəzeti oxumağa, ona kömək etməyə çağırırdı:

*Hamı millətdə var qəzetlər çox*
*Demə kim, bunda hiç faidə yox...*
*Bəs "Əkinçi" cəlalımızdır bizim,*
*Nasehi xoşməqalımızdır bizim.*
*Səy edək, ey guruhi-niksifat,*
*Etməsin ta bizim "Əkinçi" vəfat* [KKM, 2007:31].

"Əkinçi"yə həsr etdiyi şeirdən aydın görürük ki, S.Ə.Şirvani bir ziyalı kimi mətbuatı çox gözəl dəyərləndirirdi. Qəzetin xalqın dünyagörüşünün inkişafında mühüm vasitə olduğuna inanırdı. O, "Qəzet nədir" şeirində "Əkinçi"nin məramı, məqsəd və vəzifələrini nəzmlə oxuculara çatdırırdı:

*Qəzetin çoxdu xəlqə mənfəəti,*
*Nə bilir kim ki, yoxdu mərifəti.*
*Nə deyim, vəhyi-asimandır ol,*
*Leyk ərbabi-hal canıdır ol.*
*...Nə qəzet, mayeyi-səadətdir,*
*Nə qəzet, eyni-elmi-hikmətdir*[Şirvani, 2005:81].

Həsən bəy Zərdabinin təbirincə desək, S.Ə.Şirvani "Əkinçi"nin səsinə səs verərək maarifi təbliğ etməklə kifayətlənmir, yeni tipli məktəblərin açılmasını alqışlayırdı. S.Ə.Şirvani aqilin cahildən yüksək tutulmasını maarifçiliyin əsas prinsipi hesab edirdi.

**Seyid Əzim Şirvaninin oğluna nəsihəti.** Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Seyid Əzim Şirvani ədəbiyyatın tərbiyəedici imkanlarına xüsusi fikir vermiş, öz əsərlərində böyük ideallların, müqəddəs məramların, arzuların daşıyıcısı olan kamil oğul obrazı yaratmışdır. Tənbəllik, xudbinlik, məsləksizlik və s. mənfi xüsusiyyətlərin doğurduğu fəlakətləri bütün genişliyi ilə təsvir edən şair cəmiyyəti həmin qüsurlardan təmizləməyə, insanları mənən, ruhən saflaşdırmağa çalışmışdır. Şairin əsərləri içərisində öyüd, tövsiyə və didaktik mahiyyət daşıyan mənzum hekayələri vardır ki, bunların da müəyyən bir hissəsi öz ideyaları etibarı ilə onun maarifçi şeirləri ilə birləşir. Doğruluq, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. nəcib insani sifətlərin tərbiyələndirilməsi həmin öyüdlərin əsas mahiyyətini təşkil edirdi. O cümlədən şair elmə, biliyə çox böyük dəyər verir, oğluna yazdığı məktublarda, şeirlərdə, nəsihətlərdə onun elmə mükəmməl yiyələnməsini, bir neçə dil öyrənməsini tövsiyə edirdi. Bunun üçün "Oğluma nəsihət" şeirindən aşağıdakı misralara diqqət yetirmək kifyətdir:

*Cəfər, ey qönçeyi-gülüstanım!*
*Ey mənim bülbüli-xoş elhanım!*
*İki yüz yetmiş üçdə, bəd həzar*
*Mötədil fəsl idi zəmani-bahar,*
*Səni haqq mən fəqirə qıldı əta,...*
*Cəhd qıl nemeti-tamama yetiş,*
*Elm tehsil qıl məqamə yetiş.*
*Ey oğul, bir lisanaol rağib,*
*Xassə ol ms elminə talib.*
*Onlara ehtiyacımız çoxdur.*
*Bilməsək dil, əlacımız yoxdur* [Şirvani, 2005:89].

**Seyid Əzim Şirvaninin yaradıcılığının ikinci mərhələsi.** S.Ə.Şirvaninin yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirləri ilə başlayır ki, şairin ictimai mahiyyət daşıyan satiraları onun bədii yaradıcılığında mühüm yer tutur. Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan-"Alimləri məzəmmət edən cahillərə", "Şirvanın təzə bəyləri haqqında", "Şamaxının təzə bəylərinə həcv", "Şamaxı babilləri haqqında", "Quba təziyadarları və xeyməni

qarət edənlərə Nəsrəddin Şahın həcvində", "Sultanov Hadiyə", Həsən Qara Hadiyə", "Abid əfəndinin həcvində", "Salyanlı Axund Mola Məhəmmədhəsən haqqında" və s. əsərləri məhz o zaman ərsəyə gəlmişdir [Şirvani, 2005:7-53].

*Nə düşüb bilməyirəm tacirə, ya bəzzazə,*
*İstəyirlər ki, yenə qazimiz olsun tazə,*
*Gözləmək yaxşıdı hər bir iş üçün əndazə —*
*Ki, salıb töhmət ilə hər biri bir avazə,*
*Alimə diqqət edir hər yetən idbar bu gün.*
*Yoxdu kim, zərra qədər firqeyi-əttarda huş,*
*Oları buyi-gülü səndəl edibdir bihuş,*
*Elm üstə nə səbəb eyləyiri cuşü xüruş,*
*Siz deyin bağlasın öz nüsxəsini nüsxəfüruş,*
*Satsın öz ətrini misqal ilə əttar bu gün*

[Şirvani, 2005:12].

Eyni tipli satiralarında S.Ə.Şirvani ideyanın daha qüvvətli ifadəsinə xidmət etməklə bərabər, əksər məqamlarda bədii təsvirin canlılığını şərtləndirmişdir. Daha doğrusu, satiralarında ziddiyyətlərin çox böyük ustalıqla verilməsi şairin Azərbaycan dilinə məxsus leksik məna zənginliyinə bələd olmasının sübutudur. Şairin qələmə aldığı əsərlərdə mənşə etibarilə ərəb-fars sözlərindən ibarət kəlmələrin olması heç də onların ana dilindən yüksək tutulması anlamına gəlmir. S.Ə.Şirvani öz yaradıcılığında ana dilinin bədii ifadə, bədii təsvir vasitələrindən səmərəli şəkildə bəhrələnmişdir və şeirlərinin əsas sütununu məhz ana dili təşkil etmişdir.

**Nəticə/Conclusion**

Azərbaycan ədəbiyyatı tarixində Seyid Əzim Şirvaninin gənclik illəri, mükəmməl təhsili, ilk yaradıcılıq nümunələri, pedaqoji və mətbuat sahəsindəki fəaliyyəti haqqında dolğun məlumat verilir. S.Ə.Şirvaninin poetik nümunələrdən ibarət lirikası ilə yanaşı, yaradıcılığında realist satira dili ilə dövrün aktual məsələlərinə kəskin münasibət bildirməsi, didaktik əsərlərində humanist ideyaların təbliği xüsusi diqqətə layiqdir. Şairin zəngin yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixinin qızıl səhifələri adlandırılır. XIX əsrin ziddiyətləri, zamanın mühafizəkar mühiti Seyid Əzim Şirvaninin əzmini qıra bilməmiş, şair özündən sonra çox böyük, zəngin irs qoyub getmişdir. Zaman və çətinliklər faktoru istedadlı şairin, məktəbdarın, maarifpərvər pedaqoqun, dərslik müəllifinin, mehriban və qayğıkeş atanın əzmini qıra bilməmişdir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan dilinin izahlı lüğəti (2006). III cild. − Bakı: "Şərq-Qərb". − 672 s.

2. Çaylı, Ə.V. (2015). Seyid Əzim ocağına ziyarət // "Təzadlar". − 3 mart. − s.15.

3. İsmayılova, P. (2020). https://seyidazimshirvani.wordpresscom /08/05

4. Əsgərli, Z. (2005). Şirvani Seyid Əzim / Elmi red.: N. Məmmədov. − Bakı: "Elm". − 64 s.

5. Məmmədov, M. (2015). Şamaxıda bir məktəb var // "Azərbaycan məktəbi". − № 3. − s. 68-69.

6. Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2025). − Bakı: https://president.az/az/articles/view/-68493

7. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, I cild. − Bakı: "Avrasiya Press"nəşriyyatı. − 400 s.

8. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, II cild. − Bakı: "Avrasiya Press". − 384 s.

9. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, III cild. − Bakı: "Avrasiya Press". − 288 s.

10. Əliyeva, A., Əhmədova, S. (2020). Şamaxıdan doğan günəş – Seyid Əzim Şirvani. – Bakı: − 62 s.

11.Qəniyev, S., Qəni, T. (2014). Seyid Əzim Şirvani ocağı (ön söz) / elmi red. Q. Paşayev. − Bakı: "Elm və təhsil". − 182 s.

12.Vahidova, M. (2013). Firidun bəy Köçərli və Seyid Əzim Şirvani. – Bakı: AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası, − № 1, − s.61-68.

13. https://az.strategiya.az/news.php?id=142161

14. https://anl.az/el/alf25/shse_se2.pdf

**Məqalə tarixçəsi**

*Daxil olub* *03.09.2025*
*Düzəlişə göndərilib* *07.09.2025*
*Qəbul edilib* *14.09.2025*
*Nəşrə tövsiyə edib* *Tamilla Vahabova*
*pedaqogika elmləri doktoru, dosent*